# *COP29-un baş danışıqçısı:*

# "Azərbaycan bu tədbirə evsahibliyi etməkdən qürur duyur"



"Azərbaycan COP29-a evsahibliyi etməkdən böyük qürur duyur". AZƏRTAC xəbər verir ki, bunu COP29-un baş danışıqçısı, Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev "İkiillik şəffaflıq hesabatlarının hazırlanmasında inam və potensialın yaradılması üzrə təlim" seminarında deyib.

O qeyd edib ki, Azərbaycanın COP29-a evsahibliyi etməsi ilə bağlı qərar mürəkkəb qlobal problemlərin həllində beynəlxalq əməkdaşlığın gücünə inamdan irəli gəlir: "Biz COP29-a evsahibliyi edən ölkə kimi seçilməkdən qürur duyuruq və bununla bağlı məsuliyyəti dərk edirik. Eyni zamanda iqlim məsələlərinin bir-biri ilə əlaqəli olduğunu anlayırıq və inanırıq ki, qlobal əməkdaşlıq və dialoq vasitəsilə biz kollektiv şəkildə effektiv həll yolları müəyyənləşdirə bilərik".

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.8.